# Birbaşa investisiyalar nəzəriyyəsində texnologiyaların ötürülməsi problemləri

**Cəmilə NAMAZOVA,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadi təhlil və audit» kafedrasının müdiri, dos., i.e.n.*

***Birbaşa investisiyaların nəzəriyyəsində texnologiyaların ötürülməsi problemləri bir sıra xarici ölkələrin tədqiqatçı alimləri tərəfindən tədqiq edilmişdir. Burada həmin problemlər müxtəlif baxışlar əsasında, ilk növbədə, kapitalın texnoloji aspektini nəzərə alan birbaşa investisiyalar formasında dövriyyəsi, daha sonra xarici ticarətin mühüm nəzəriyyələri və texnologiyaların ötürülməsi kimi nəzərdən keçiriləcəkdir.***

Elmi araşdırmalar zamanı birbaşa investisiyalar nəzəriyyəsi tədqiq edilərkən bir sıra suallar ortaya çıxır. İlk olaraq əsas məsələ kimi “Xarici kapitala malik olan müəssisələr nə üçün yaranır və fəaliyyət göstərir?” sualı daha çox maraq kəsb edir. Eyni zamanda bununla yanaşı ayrıca olaraq aşağıdakı əlavə məsələlər də qarşıya qoyulur. Bunlara aşağıdakıları aid etmək olar:

- sahibkarları ölkə hüdudları kənarında iqtisadi fəaliyyətini həyata keçirməyə vadar edən səbəblər;
- birbaşa xarici investisiyaların sahəvi və coğrafi strukturu;
- xarici kapitalın iştirak etdiyi müəssisə çərçivəsində texnologiyaların ötürülməsinin səmərəliliyi;
- şirkətin xarici bazarlara çıxışı kontekstində birbaşa investisiyaların formasının seçiminə təsir göstərən amillərin müəyyənləşdirilməsi.

Qeyd etmək lazımdır ki, birbaşa investisiyalar problemi geniş çoxcəhətli mövzu olduğundan bu mövzuya müraciət edən bir çox xarici tədqiqatçıların elmi yanaşmalarını nəzərdən keçirəcəyik. Eyni zamanda bizi maraqlandıran investisiyalar nəzəriyyəsinin təsnifatı mövzusu üzrə iqtisadi ədəbiyyatda da birbaşa investisiyalara dair bir çox müxtəlif baxışlar mövcuddur. Bəzi tədqiqatçılar birbaşa investisiyaların bütün nəzəriyyələrini mikro və makroiqtisadi nəzəriyyələrə bölür. Bu tip yanaşmanın əsas mənfi cəhəti ondan ibarətdir ki, bəzi nəzəriyyələr bu prinsip üzrə təsnif edilə bilmir.

Tədqiqatçı alim Kasson tərəfindən təklif olunan elmi yanaşmanı nəzərdən keçirək. Müəllif birbaşa investisiyalar nəzəriyyəsini üç qrupa bölməklə: beynəlxalq kapital bazarları nəzəriyyələri, müəssisə nəzəriyyələri və ticarət nəzəriyyələri adlandırmışdır. Müəllifin fikrinə əsasən, birbaşa investisiyalar nəzəriyyəsi



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

yuxarıda qeyd edilmiş üç nəzəriyyənin məcmusundan ibarət olmalıdır. Onu da qeyd etmək lazımdır ki, texnologiyaların ötürülməsi probleminin təhlili üçün bu nəzəriyyə lazımlı hesab edilmir.

Digər tədqiqatçı alim Stempnyak tərəfindən isə təklif edilmiş nəzəriyyə kifayət qədər funksional və məntiqlidir. Bu nəzəriyyə investisiyaları qəbul edən ölkənin spesifikası ilə, həm də kapitalı ixrac edən şirkətin spesifikası ilə əlaqədar olan amilləri nəzərə alır. Bunu aşağıdakı cədvəldən görmək olar (cədvəl 1).

Qabaqcıl texnologiyaların ötürülməsi probleminə bir çox aspektlərdən yanaşmaların mövcudluğu onun təhlilinin zəruri olduğunu tələb edir. Belə ki, tədqiqatçı alim Ximer tərəfindən «Firmanın özünəməxsus üstünlükləri» nəzəriyyəsi hazırlanmışdır. Birbaşa xarici investisiyalar probleminin təhlili üçün investisiya portfeli nəzəriyyəsinin qeyri-mükəmməl olmasını söyləyərək, Ximer haqlı olaraq qeyd etmişdir ki, birbaşa investisiyalar yalnız kapital yatırımı deyil, həm də tam olaraq bir paket digər ehtiyatların, eləcə də texnologiyaların, idarə metodlarının, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi və s. yatırımı deməkdir. O, öz tədqiqatlarında «mükəmməl bazar rəqabəti» prinsiplərinə əsaslanırdı. Ximer göstərmişdir ki, birbaşa investisiyalar üçün ilkin zəmin investisiyalar yatıran təsərrüfat subyektlərinin bir sıra özünəməxsus üstünlüklərə malik olmasıdır. Təsərrüfat subyektlərinin özünəməxsus üstünlüklərini müəyyən edən amillər sırasına o, tədqiqat potensialı və müəyyən texnoloji ehtiyatları aid etmişdir.

Fikrimizcə, Ximer nəzəriyyəsinin əhəmiyyəti ondan ibarətdir ki, o bu nəzəriyyəni özünəməxsus üstünlükləri ilə digər nəzəriyyələrdən fərqləndirmişdir.

Texnologiyaların ötürülməsi ilə bağlı olan birbaşa investisiyaların təhlili üçün lokalizasiya nəzəriyyəsi yalnız digər nəzəriyyələr və ya onların elementləri ilə birgə olaraq tətbiq edilə bilər. Bununla əlaqədar qeyd etmək lazımdır ki, lokalizasiya amili onun üç elementindən biridir. Lokalizasiya nəzəriyyəsi müəlliflərinin fikrinə əsasən birbaşa

***Cədvəl 1. Birbaşa investisiyalar nəzəriyyəsinin təsnifatı***

| *İdxalçı ölkə şəraitlərinin spesifikasını əks etdirən nəzəriyyələr* | *Təsərrüfat subyektlərinin fəaliyyətinin spesifikasını əks etdirən nəzəriyyələr* |
|---|---|
| Rentabellik nəzəriyyəsi | İnvestisiyaların diversifikasiyası nəzəriyyəsi |
| Bazar həcmi nəzəriyyəsi | Təsərrüfat subyektlərinin fəaliyyət nəzəriyyəsi |
| Məhsulun saxlama dövrü nəzəriyyəsi | Oliqopolistik reaksiya nəzəriyyəsi |
| Valyuta zonası nəzəriyyəsi | Milliləşmə nəzəriyyəsi |
| Lokallaşdırma nəzəriyyəsi | Mülkiyyət üstünlüyü nəzəriyyəsi |

investisiyalar üçün zəmin iki amilin mülkiyyət üstünlüklərinin (sərmayə yatıran təsərrüfat subyektinə aiddir) və lokalizasiya üstünlüklərinin (sərmayənin istiqamətləndiyi ölkəyə aiddir) birləşdirilməsindən ibarətdir. Daha doğrusu, mülkiyyət üstünlükləri nəzəriyyəsinin «Kim investisiya yatırır?» sualına cavab verdiyi halda, lokalizasiya nəzəriyyəsi «haraya investisiya yatırılır?» sualına cavab verir.

İnvestisiyalar haqqında qərarın qəbul edilməsinə bir sıra amillər təsir göstərir. Bu amillərə istehsal qüvvələrinin yerləşdirilməsinin məkan strukturu (təbii ehtiyatların, eləcə də texnologiyaların əlverişli olması; bu bilik və istehsal təcrübəsi əldə etmək istəyən təsərrüfat subyektləri üçün mühümdür), istehsal ehtiyatlarının keyfiyyəti və onların effektivliyi, psixoloji və texnoloji uyğunluq və elmi – tədqiqat işləri sahəsində üstünlükləri aid etmək olar.

Fikrimizcə, lokalizasiya nəzəriyyəsinin birbaşa investisiyaların forması və texnologiyaların ötürülməsi kimi məsələlərin müzakirə olunmasına baxmayaraq investisiya qoyuluşlarına ehtiyacı olan ölkələrdə iqtisadi siyasət düzgün aparılarsa onda bu nəzəriyyə ölkə üçün kifayət qədər faydalı ola bilər. Belə ki, ölkəyə investisiya qoyuluşlarının cəlb edilməsi və artırılması üçün nəyin zəruri olması müəyyənləşdirilməlidir.

Xüsusilə, bu nəzəriyyə kontekstində yüksək konsentrasiyalı təsərrüfat subyektlərinin olduğu ərazinin mövcudluğuna diqqət yetirmək lazımdır. Bu baxımdan müəyyən ərazilərdə ixtisaslaşdırılmış texnoloji xidmətlərin olması mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, təsərrüfat fəaliyyətinin həyata keçirilməsi risklə bağlıdır. Bir qayda olaraq, kapitalın xarici ölkələrdə yerləşdirilməsi zamanı bu risk daha böyük olur. Xarici aktivlər portfelinin diversifikasiyası bu riski azaltmağa imkan verir.

Risklər və gözlənilən gəlirdən əlavə texnologiyaların bazar üçün cəlbediciliyini bir sıra amillər müəyyən edir. Bu amillər sırasında hal-hazırda tətbiq edilən texnologiyalar tərəfindən özünə yer almış bazar həcmi, eləcə də mükəmməlləşdirilmiş və modifikasiya olunmuş texnologiyalar üçün bazarın proqnozlaşdırılan həcmi, müəssisənin xarici bazarlara çıxarılması və onun mövqelərinin möhkəmləndirilməsi üçün texnologiyaların əhəmiyyəti, daxili və xarici bazarlarda rəqabət şərtləri, texnologiyanın tətbiq edilməsində sosial və ekoloji nəticələri göstərmək olar.

Bu və ya digər texnologiyanın xarici ölkələrdə yerləşdirilməsi haqqında qərarın qəbul edilməsi təsərrüfat subyektlərinin strateji prioritetlərindən, onun texnoloji potensialının səviyyəsindən (xarici və yerli rəqiblərlə müqayisədə), eləcə də həmin texnologiyadan istifadə etməklə istehsal edilən məhsulun xarici bazarda mövcud olma müddətindən asılıdır.

Texnologiyaların ötürülməsində daxili sövdələşmələr nəzəriyyəsi bazarın «axtarılması» vasitəsilə operativ xərclərin azaldılması konsepsiyasına əsaslanır. Bu konsepsiyaya əsasən bazar hər zaman təsərrüfat fəaliyyətinin tənzimlənməsinin optimal mexanizmi kimi çıxış etmir. Tədqiqatçılar Bakli və Kassonun

fikrinə əsasən, birbaşa investisiyaların həyata keçirilməsi haqqında qərarın qəbul edilməsi üçün həlledici amil texnoloji üstünlük, istehsal təcrübəsi və ixtisaslaşma kimi elementləri özündə ehtiva edən «mülkiyyətçi üstünlüklərinin» (korporativ üstünlüklər) olmasından ibarətdir. Ümumiyyətlə nəzəriyyəyə əsasən sövdələşmələrin yerinə yetirilməsi gəlirin əldə edilməsinə və rəqabət üstünlüklərinin qorunmasına zəmanət verir. Adətən sövdələşmələrin lisenziyaların ötürülməsi formasına daha az üstünlük verilir. Belə ki, onlar investorun monopolizasiyasının zəifləməsinə gətirib çıxara bilər.

Subyektdaxili sazişlər bir sıra xərclərin (məsələn, saziş bağlanmış tərəfdaşlarla danışıqların aparılması xərcləri, vergilər, inzibati xərclər və s.) xeyli azaldılmasına imkan verir. Sövdələşmə prosesi bütün sazişləri əhatə edə bilməz, lakin, o, xammal, yarımfabrikatlar, texnologiyalara və elmi – tədqiqat işlərinin nəticələrinə münasibətdə xüsusilə səmərəli olur. Bu tip sazişlər bazar qiymətlərindən aşağı olan «daxili qiymətlərlə» həyata keçirilir. Digər tərəfdən sövdələşmə prosesi həmçinin dövlətin iqtisadiyyata müdaxilə etməsinin nəticələrini neytrallaşdırmağı və mülkiyyət hüququnu müdafiə etməyə imkan verir.

Qeyd etmək lazımdır ki, sövdələşmə nəzəriyyəsinin mənfi cəhəti onun təcrübədə yoxlanılmasının çətinliyi və statik xarakterindən ibarət olmasıdır. Onun ən mühüm nailiyyətləri sırasına isə texnologiyalar mübadiləsi sferası üçün xüsusi əhəmiyyət kəsb edən bazar mexanizminin qeyri-mükəmməl olmasını aid etmək olar.

Digər bir nəzəriyyə «mənimsəmə» nəzəriyyəsidir ki, burada bazar mexanizminin qeyri-mükəmməlliyinin ixtisaslaşmış nəzəriyyələr sırasına aid olmasıdır. «Mənimsəmə» nəzəriyyəsi tədqiqatçı S.P.Magi tərəfindən 70-ci illərdə işlənmişdir. Bu nəzəriyyəyə əsasən texnologiyanın bir tərəfdən fərdi, digər tərəfdən isə ictimai olması mövcud rəqiblər qarşısında innovasiya üstünlüklərinin itirilməsi ilə nəticələnməsi səbəb ola bilər. Bu nəzəriyyənin müəllifinin fikrinə əsasən xarici investisiyalar hər şeydən əvvəl daha mürəkkəb, yüksək texnologiyalar sferasına aid olan ideyaların mənimsənilməsinə meyllidirlər. Bu səbəbdən də beynəlxalq korporasiyalar daha mürəkkəb innovasiya texnologiyalarının işlənib hazırlanması və yayılması sferasında həlledici rol oynayır.

Tədqiqatçı S.P.Magi tərəfindən eyni zamanda sənaye sahəsinin texnoloji dövrü konsepsiyası işlənib hazırlanmış və həmin konsepsiya çərçivəsində müəssisənin rəqabət üstünlüyünün təkamülü təhlil edilmişdir. O, sübut etmişdir ki, təsərrüfat subyekti özünün yeni, perspektivli texnologiyasını iki səbəbdən satmaya bilər. Bu ilk öncə alıcının deyilən qiymətə razı olmaması və ya ödəyə bilməməsi baxımından və ya nəticədə alıcı əldə etmiş olduğu texnologiyadan satıcı ilə rəqabət mübarizəsi üçün istifadə edə bilməsi səbəbindən baş verə bilər. Yalnız texnologiya köhnəldikcə mənimsəmə meyli azalır və texnologiyanın ötürülmə formasının dəyişilməsi baş verir ki, birbaşa investisiyaların əvəzinə lisenziyadan istifadə edilir.

Birbaşa investisiyalar nəzəriyyəsinə texnologiyaların ötürülməsi problemlərinə dair

tədqiqatçı Daninqin «eklektik» nəzəriyyəsi də aid edilir. Lakin bu nəzəriyyənin işlənib hazırlanmasına dair tədqiqatçılar Xirş və Lindqrenin də mükəmməl fikirləri olmuşdur. Daninqin nəzəriyyəsi bir çox elmi işlərdə daha ətraflı təhlil edilmişdir. Bu səbəbdən də müəllif öz tədqiqat işində texnologiyaların ötürülməsi problematikası ilə əlaqədar olan məsələlərin şərhi ilə kifayətlənmişdir.

Daninq bu nəzəriyyənin üstünlüklərinin əsasən üç növünü qeyd edir. O, birinci qrupa, daha doğrusu, texnologiyaya olan mülkiyyət hüququndan irəli gələn üstünlüklərə mülkiyyət hüququ (maddi və qeyri maddi aktivlər), istehsal və təşkilati innovasiyalar, idarə metodları, insan kapitalı kimi üstünlükləri aid edir. Eyni zamanda müəyyən ehtiyatların mövcud olması faktından irəli gələn ehtiyat üstünlüklərini və müəssisənin strukturunun qlobalizasiyası və diversifikasiyası prosesləri ilə əlaqədar olan əməliyyat xərcləri sferasında olan üstünlükləri də bu qrupa daxil etmişdir. İkinci qrupu milliləşdirmə, üçüncü qrupu isə lokalizasiya ilə əlaqədar üstünlüklər təşkil edir.

Bütün bunlarla yanaşı texnologiyaların ötürülməsi probleminin təhlili üçün həmçinin beynəlxalq ticarət nəzəriyyələri də mühüm əhəmiyyətə malikdir. Texnologiyaların ötürülməsi probleminin təhlili zamanı beynəlxalq ticarət nəzəriyyələrinin müddəalarının nəzərə alınması zərurəti bir sıra səbəblərdən irəli gəlir. Birincisi, texnologiyaların ötürülməsi adətən malların mübadiləsi formasında (sərmayə xarakterli) həyata keçirilir. İkincisi, xarici investisiyalar beynəlxalq mübadilədə iştirak edir, digər tərəfdən Mərkəzi və Şərqi Avropa ölkələri arasında onların ixrac və idxala olan meyllərinin milli şirkətlərdə xeyli artıq olmasıdır.

Tədqiqat zamanı müəyyən edilmişdir ki, texnologiyaların ötürülməsində «texnoloji boşluq» nəzəriyyənin əsasını ayrı-ayrı ölkələrdə texnologiyaların qeyri-bərabər inkişafı faktı təşkil edir ki, bunun da nəticəsində «texnoloji boşluqlar» yaranmış olur. Texnoloji inkişaf səviyyələrində olan fərqləri tədqiqatçı Smitin «mütləq üstünlüklər» adlandırdığı anlayışın sinonimi hesab etmək olar. Digər tərəfdən isə texnologiya sferasında geri qalan ölkə və şirkətlər innovasiyaları təqlid etməyə və bununla da öz texnoloji gerliyini aradan qaldırmağa cəhd edir. Texnoloji üstünlüklərin diskont edilməsi yüksək texnoloji malların ixracı, texnologiyaların satışı (lisenziya formasında), eləcə də birbaşa investisiyalar formasında həyata keçirilə bilər. Yeni texnologiyalar mənimsənildikcə və məhsulun rəqabət qabiliyyəti artdıqca ilk öncə texnoloji cəhətdən geri qalan ölkələrdən malların ixrac potensialı artır və onlar özləri də beynəlxalq ixracatçılara çevrilirlər. Bu baxımdan da mal mübadiləsi axınları istiqamətini dəyişə bilir.

Texnologiyaların ötürülməsində məhsulun mövcudiyyət dövrü nəzəriyyəsində də müxtəlif fikirlər mövcuddur. Bu nəzəriyyənin əsas müddəaları tədqiqatçı Şumper tərəfindən işlənib hazırlanmışdır, lakin sonradan isə tədqiqatçı Vernonun elmi işlərində daha da dolğun şəkildə işlənmişdir. Bu nəzəriyyə («texnoloji boşluqlar» nəzəriyyəsi kimi) texnologiyanın müxtəlif ərazilərdə qeyri-bərabər inkişaf etməsi fikrindən irəli gəlir.

Qeyd etmək lazımdır ki, məhsulun mövcudiyyət dövrü üç fazanı - innovasiya, «yetişmə» və standartlaşmanı əhatə edir. Texnoloji cəhətdən lider olan ölkə ilk öncə öz daxili tələbatını ödəyir, sonra isə istehsal həcmi artdıqca və beynəlxalq bazarda tələbat yarandıqca xarici ixracata başlayır. Müəyyən bir mərhələdə o həmin malın istehsalını dayandırır, daxili tələbatı isə idxal hesabına təmin edir. Bunun nəticəsində azad olmuş ehtiyatlar yeni, daha müasir malların istehsalı üçün istifadə edilir və bununla da dövr təkrarlanmış olur.

İnnovasiya məhsulun mövcudiyyət dövründə bir neçə fazanı onun layihələşdirilməsindən və texnoloji cəhətdən inkişaf etmiş ölkənin bazarda yer almasından istehsal baxımından həmin məhsulun tam olaraq mənimsənilməsinədək olan dövrü qeyd etmək mümkündür.

Məhsulun mövcudiyyət dövrü nəzəriyyəsi beynəlxalq texnoloji mübadilənin təhlili zamanı tətbiq edilmiş və belə bir nəticə əldə edilmişdir ki, məhsulun mövcudiyyət dövründə innovasiya fəaliyyətinin nəticələrindən yalnız lider ölkə deyil, həmçinin ondan geri qalan ölkələr də istifadə edə bilər. Bu baxımdan innovasiya fəaliyyətinin hər bir zaman risklə bağlı olduğundan daha az inkişaf etmiş ölkələr adətən digər ölkələrin təcrübəsi və nailiyyətlərindən istifadə etməyi üstün tuturlar.

Məhsulun mövcudiyyət dövrü nəzəriyyəsi tam olaraq birbaşa xarici investisiyalar və beynəlxalq texnoloji mübadilə mexanizmlərini aydınlaşdırmır. Bunu izah etmək məqsədilə ən yeni texnologiyaların xarici ölkələrdə yerləşdirilməsindən ibarət olan «əks növbə» fenomeni kimi aspektlərə istinad olunur. Burada «əks növbə» terminindən ona görə istifadə edilir ki, geniş yayılmış məhsulun mövcudiyyət dövrü nəzəriyyəsinə müvafiq olaraq birbaşa xarici investisiyalar çərçivəsində, bir qayda olaraq, kütləvi istehsal fazasında tələb olunan məhsulun hazırlanması üçün texnologiya, daha doğrusu, aşağı səviyyəli texnologiya ötürülür.

Tədqiqatçı O.K.Akamatsu tərəfindən isə «Məhsulun dövrünün uzadılması» nəzəriyyəsi XX əsrin 30-cu illərində işlənmişdir. Bu nəzəriyyəyə müvafiq olaraq dünya texnologiyalarının tətbiqi və ötürülməsi baxımından geri qalan bir sıra ölkələr idxal vasitəsilə müəyyən mallara olan tələbatlarını ödəyirdilər. Bu ölkələr yerli məhsullarını istehsal etmək üçün zəruri olan maddiləşmiş elmi-texniki biliklər əldə edərək özləri istehsala başlayır və daima onu təkmilləşdirirlər. İlk əvvəl bu cür məhsul daxili bazara çıxarılır, sonradan isə digər bir faza dünya bazarının mənimsənilməsi prosesi baş verir.

Daha sonralar bu konsepsiya digər müəlliflər tərəfindən, o cümlədən tədqiqatçılar Pozner, Xufbauer və Hikson tərəfindən işlənmişdir. Ümumiyyətlə, beynəlxalq ticarət və birbaşa investisiyalar nəzəriyyələrinin öyrənilməsi əsasən ticarət və yeni texnologiyaların ötürülməsinə xidmət edir.

Bu səbəblərdən biri texnologiyaların nümayiş səmərəliliyidir. Xarici investorun öz texnoloji nailiyyətini gizli saxlamağa çalışmasına baxmayaraq, öz məhsulunu nümayiş etdirməklə, onu bazara çıxaracaq və bu da öz

növbəsində digər istehsalçılar üçün belə bir məhsulun mövcud olmasına işarə olacaqdır. Eyni zamanda onlar məhsulun işləmə mexanizmini, xüsusiyyətlərini, ona olan tələbatı və satış qiymətlərini öyrənməyə başlayacaqlar.

Digər bir səbəb rəqabət səmərəliliyidir ki, xarici istehsalçı tələbata uyğun yaxşı məhsul istehsal etdiyi zaman digər müəssisələrin mövqeləri bazarda zəifləyir. Bu baxımdan xarici investorlar bazarın onlara aid olan hissəsini saxlamaqdan ötrü öz məhsullarını təkmilləşdirməlidirlər.

Ən nəhayət, üçüncü səbəb isə texnoloji fəndlər və müəssisələrdə xarici kapitala olan tələbatın təcrübəsinin yerli müəssisələr tərəfindən qəbul edilməsidir.

Qeyd etmək lazımdır ki, texnologiyaların ötürülməsi problemlərinin daima tədqiq olunması zəruridir.

Çünki bu proses son nəticədə istehsalatın sürətli artmasına və perspektivli inkişafına şərait yaradır.

**Дж.Намазова**

**Проблемы передачи технологий в теории прямых инвестиций**

**РЕЗЮМЕ**

В статье исследуются проблемы передачи технологий в теории прямых инвестиций по теориям, связанным с именами ряда ученых-исследователей зарубежных стран. Несмотря на отличительные особенности этих теорий, прямые инвестиции в итоге приводят к стремительному росту производства, и, способствуя перспективному развитию, приводят к передаче новых технологий.

**J.Namazova**

**Problems of technology transfer in the theory of direct investments**

**SUMMARY**

The article deals with the research of technology transfer in the theory of direct investments, connected with the names of a number of foreign scientists-researchers. In spite of the peculiarities of these theories, as a result direct investments lead to the swift growth of production and transfer of new technologies, promoting prospective development.

***Ədəbiyyat***

1. Бронбур М.Анализ экономической эффективности капиталовложений. М., Инфра-М., 1996.
2. Ковалев В.В. Методы оценки инвестиционных проектов. М., Финансы и статистика, 2003.
3. Фатоцци Ф.О. Управление инвестициями /Пер.с анг., М., Инфра-М., 2000.
4. Шарп Ульям Ф. Инвестиции. М., Инфра-М., 1999.
5. Игошин Н.В. Инвестиции. М., Финансы, ЮНИТИ, 1999.

♦